# Dövlətimizin qadın siyasəti, cəmiyyət və ailə

Azərbaycan cəmiyyətində qadınlar həmişə aparıcı mövqe tutmuşlar. Bu, bəlkə də, millətimizə xas olan, qadına göstərilən yüksək hörmət və ehtiramdan irəli gəlir. Hazırda isə qadınlar daha iri addımlar ataraq cəmiyyətdə böyük rola malikdirlər və onların problemləri ilə bağlı məsələlər Azərbaycan Respublikası hökumətinin diqqət mərkəzindədir.

Ulu öndər, Ümummilli lider Heydər Əliyev qadınlarımızın ictimai-siyasi həyatda iştirakını daim dəstəkləmiş, ailə və uşaqların problemlərinin həllinə diqqət və qayğı göstərmişdir. Məhz bu qayğı nəticəsində 1998-ci ildə Azərbaycanda Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmış. «Azərbaycan qadınlarının rolunun artırılmasına dair tədbirlər haqqında», «Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında» fərmanlar imzalanmışdır.

Diqqət verilməyən sahədə irəliləyiş ola bilməz. Ona görə də bu gün qadınlara möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən daim diqqət yetirilir və qəbul edilmiş siyasi xətt uğurla davam edir.

Gözəllik, xeyirhaqlıq, analıq kimi ülvü keyfiyyətləri təcəssüm etdirən qadınlarımız bu gün bütün sahələrdə layiqli fəaliyyət göstərərək peşə səviyyələrini artırır, karyeralarında irəliləyişlərə nail olurlar.

Azərbaycan qadınlarının ən nəcib xüsusiyyətlərini və keyfiyyətlərini özündə birləşdirən iki böyük qadının—anası Aidə xanımın, qaynanası Zərifə xanımın zəngin mənəvi keyfiyyətlərindən bəhrələnən Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın qadın və uşaqlarımızın rifahının yüksəldilməsi sahəsində fəaliyyəti hamımıza örnəkdir.

Dünyaya gələn hər kəs, xüsusən qadın, ağlı kəsəndən öz həyatını gözəlləşdirmək, rahat, xoşbəxt yaşamaq üçün çalışır. Uşaqların öz gələcək taleyini həll etməsi, cəmiyyətdə yüksək mövqe tutması üçün ailədə onlara müəyyən fikir sərbəstliyi və imkan verilməlidir. Ancaq, bəzi ailələrdə qızlara hələ yeniyetməlik dövründə belə tərbiyə verirlər ki, siyasətlə məşğul olmaq, məsuliyyətli vəzifədə çalışmaq, qərar qəbul etmək qadın işi deyil. Onların əsil vəzifəsi ev xanımı olmaq, ailə və uşaq qayğısı çəkməkdir. Ancaq bu yanlış fikirdir. Ola bilsin ki, belə ailədə böyüyən qızların bir çoxu gələcəkdə gözəl siyasətçi, dövlət xadimi olsunlar. Ona görə də qadınları hakimiyyətdən, siyasətdən uzaq saxlamaq fikri ciddi səhvlərdən biridir. Tarix bir çox siyasətçi və görkəmli qadınlar yetişdirib və onların səmərəli fəaliyyətinin şahidi olub.



Bu sahədə qadınlar da üzərlərindən məsuliyyəti götürməməlidirlər. Hər bir qadın öz üzərində ciddi çalışmalıdır. Biz özümüzü cəmiyyətdə vəzifə tutmaq üçün deyil, faydalı olmaq üçün hazırlamalıyıq. Kənardan yaxşı görünmək üçün yox, iş görmək naminə çalışmalıyıq. Qadının istəyindən asılı olmayaraq savadlı, mübariz, layiqli, cəmiyyətə faydalı olanlar irəli çəkilməlidirlər. Azərbaycan qadınlarının fəaliyyəti bütün qadınların səadəti, xoş güzəranı naminə mübarizəyə yönəlməlidir.

Cəmiyyətin inkişafı ailədən başlayır. Ailə nə qədər güclüdürsə, cəmiyyət də o qədər güclüdür. Öz qabiliyyətini, potensial imkanlarını vəzifədə, qərarların qəbulunda reallaşdıran qadınların ən başlıca vəzifəsi ləyaqətini, xoşbəxtliyini qoruyaraq yaşamasında və ailəsini qorumasındadır.

Qadın üçün ən böyük xoşbəxtlik ana olmaqdır. Ana ailədə atadan sonra ikinci başçıdır. Evin nizamını və övlad tərbiyəsini çiynində daşıyandır. Onun məhərəti həm də yetişdirdiyi övladları ilə ortaya çıxır. Əsl ana övladını vətən, millət və cəmiyyət üçün böyüdüb, onun xidmətinə verəndir.

XXI əsrdə bəşəriyyətin sürətli inkişafı təhsil səviyyəsinin artırılması ilə yanaşı bizdən daha intellektli, yüksək səviyyəli düşünmə tərzinə malik gənclərin yetişdirilməsini tələb edir.

Bir millətin gələcəyinin necə olmasını görmək üçün gənclərə baxmaq kifayətdir. Yüksək mənəviyyatlı gəncləri yetişdirməkdə isə ən böyük vəzifə anaların üzərinə düşür. Savadlı, kamil gəncliyin yetişməsi üçün qızların təhsilli olmasına xüsusi qayğı göstərilməlidir. Çünki, qadın hissi baxımından daha zəngin yaradılmışdır. Digər tərəfdən qadın nəslin qorunması və yüksək təbiyəsi vəzifəsini yerinə yetirməkdə çox aktual bir varlıqdır.

(Ardı 5-ci səhifədə).

# Ənənə davam edir

Milli Azərbaycan dövlətçiliyinin qurucusu, müstəqilliyimizin təminatçısı, ümummilli lider Heydər Əliyev təhsil işçiləri qarşısında çıxış edərkən demişdir: «...Məktəblərimizdə Azərbaycanın dövlət müstəqilliyinin, azadlığının mənalı məzmunu çox geniş tədris olunmalıdır... Gənclərimizi tariximizə, mədəniyyətimizə, ənənələrimizə uyğun tərbiyə etmək təhsilin əsas istiqaməti, məktəblərimizin borcudur».

Həqiqətən, mərhum Prezidentimizin arzuladığı sağlam təfəkkürlü yurddaşlar yetişdirmək kimi mühüm bir vəzifə indiki zamanda biz təhsil işçilərinin üzərinə düşür. Çünki gələcəyin sağlam ruhlu vətəndaşı məhz məktəbdə yetişir, tədris prosesində formalaşır.

Bu baxımdan, məktəbimizdə son illər təlimin keyfiyyətinə xüsusi diqqət yetirilir. Tədrislə bərabər, hərtərəfli biliyə, praktik hazırlığa malik, yaradıcı düşünən gənc nəslin yetişməsində başlıca rol oynayan sinifdənxaric və məktəbdənkənar təşkil olunan tədbirlər--tarixi günlər, müxtəlif bədii əsərlərin müzakirəsinin, fənn gecələrinin, bilik yarışlarının, şeir müsabiqələrinin keçirilməsi məktəbdə bir ənənə şəklini almışdır.

Bu yaxınlarda IX və X siniflər arasında keçirilən bilik yarışı da məktəblilərin elmi biliklərə nə dərəcədə malik olduqlarını sübut etdi.

IX siniflər arasında «Oğuz eli» komandası (IX «c») 36, «Şahin» komandası (IX «b») 94, «Ulduz» komandası (IX «a») 104, X siniflər arasında «Ulduz» komandası (X «a») 35, «Ağıl dəryası» komandası (X «c») 98, «Xəzər» komandası 101 bal toplayaraq I, II, III yerləri bölüşdülər.

Yarış başlamazdan əvvəl vaxtilə məktəbin məzunu olmuş, hazırda məktəbdə riyaziyyat fənnini tədris edən Nəzakət Abdullayevanın yeni nəşr olunmuş «Nisgilli dunyam» adlı kitabının təqdimatı da bu tədbirə xüsusi rəng verdi.

**Ruhanə HƏMİDOVA,**
**Qəbələ şəhər 2 saylı tam orta məktəbin müəllimi.**

# ARDNŞ və «Conoso Phillips Exploration Azerbaijan LTD» tədbir keçirilmişdir

Bu günlərdə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (ARDNŞ) və «Conoso Phillips Exrloration Azerbaijan LTD» şirkəti arasında Azərbaycanda quruda 2D Seysmik İşlər üzrə Birgə Tədqiqatın Ətraf Mühitə Təsirlərin Qiymətləndirilməsi layihəsi ilə əlaqədar «Qafqaz» Resort otelində ictimai dinləmələr keçirilmişdir.

Tədbirdə ARDNŞ-in Ekologiya İdarəsinin Texniki İstehsalat şöbəsinin rəisi, layihənin meneceri Rüstəm Rüstəmzadə görüşün məqsədi və layihə haqqında qısa məlumat verdi. Qeyd etdi ki, layihənin həyata keçirilməsi ARDNŞ-in strateji inkişafına uyğun icra edilir. Burada neft-qazlılıq baxımından yeni prespektiv strukturların aşkar olunmasına və gələcək axtarış-kəşfiyyat işlərinin prespektiv istiqamətlərinin müəyyən olunmasına köməklik göstərəcəkdir. Gözlənilən nəticələr əldə edildiyi halda bu regionların sosial-iqtisadi inkişafına müsbət təkan verəcəkdir.

Təxminən 8 min kvadratmetr ərazini əhatə edən Tədqiqat sahəsi Bakının mərkəzindən qərbə 70 kilometr məsafədən başlayaraq Azərbaycanın Şimal-qərb istiqaməti boyu ölkənin qərb sərhədlərinə qədər uzanaraq Qax, Şəki, Oğuz, Mingəçevir,Yevlax, Qobustan rayonlarının inzibati ərazilərini əhatə edir. ARDNŞ-in Ekologiya İdarəsi ilə «Conoso Phillips Exploration Azerbajcan LTD» şirkəti arasında görüşlər keçirilərək layihə üzrə fikir mübadiləsi aparılmış və görüləcək işlər müzakirə olunmuşdur. Həmçinin hər iki şirkətin nümayəndələri 20 seysmik işləri apararaq rayonlarda rayon icra hakimiyyətlərinin başçıları və Dövlət Torpaq və Xəritəçəkmə Komitələrinin nümayəndələri ilə görüşərək layihə üzrə aparılacaq işlər barədə məlumat vermişlər.

20 seysmik kəşviyyat işləri aparılaraq ərazilərdə ekologiya idarəsinin əməkdaşları tərəfindən ekoloji monitorinqlər aparılmış, seysmik xətlərin keçdiyi ərazilərdən su və qrunt nümunələri götürülərək ekologiya idarəsinin kompleks tədqiqat laboratoriyasında analiz olunmuş, baza məlumatları və analtik təhlilərin nəticələri ümumiləşdirilmişdir.

Layihənin əhatə etdiyi tədqiqat obyektlər olan həssas təbii ərazilər, milli park və dövlət təbiət qoruqları, meşə təsərrüfatı, dövlət, bələdiyyə və şəxsi torpaq sahələri, yaşayış məntəqələri, kommunikasiya xətləri keçən sahələr və s. ərazilərdə dəqiq olunaraq xəritələşdirilmişdir.

Tədbirdə ARDNŞ-in Geologiya və Geofizika idarsinin nümayəndəsi Hafiz Şəkərov «Geologiya və Geofizika idarəsi, geoloji və geofiziki işlər», «Ekologiya İdarəsi Exoloji Tədqiqatları Ekspedisiyasının rəisi Rasim Əmrahov «layihənin təsviri-monitorinq tədqiqatları və ətraf mühitin ilkin vəziyyətinin qiymətləndirilməsi, İqlim LTD şirkətinin nümayəndəsi layihənin subpodratçısı Mirzəxan Məsimov «Ətraf mühitə mümkün təsirlər və onların qiymətləndirilməsi və «Yumşaltma tədbirləri və alternativlər barədə iştirakçıları məlumatlandırmışlar.

**Elmdar ŞƏRİFOV,**
**rayon icra hakimiyyətinin aqar şöbəsinin baş aqronomu.**